# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

Yazıçı bütün əsərlərində Qorbaçovun bu və ya digər xarakterik keyfiyyətlərini verməklə böyük imperiyanın son katibinin mükəmməl obrazını yaratmış olur.

Şvernadzenin də müvəffəqiyyətləri ilə yanaşı, keçmiş SSRİ-nin XİN işlərkən buraxdığı səhvləri unutmur, müttəfiqlərə edilən «xəyanətlər», sosialist ölkələri ilə münasibətlərin «pisləşməsi»ndə Şvernadzenin fəaliyyəti «unudulmur», yazıçının nəzərincə, «Euard Şvernadze XİN-də işlədiyi 5 il ərzində sosalizm cəbhəsinin və Sovet İttifaqının dağılması üçün bir çox gürcü dissidentlərindən daha çox iş görmüşdü», xüsusilə, Almaniya ilə bağlı əhvalatı daha «biabırçı» görür. «O vaxt Qorbaçov və Şvernadze öz mənafelərinin aşkar ziyanına olaraq Qərb tərəfdaşlarının demək olar ki, bütün tələblərinə güzəştə getmişdilər».

Şvernadzenin Moskvada sevilmədiyini, Liqaçov, Çebrikov kimi onu sevməyən qüvvələrin olduğunu, Qorbaçovla-Şvernadzenin şəxsən yeritdikləri siyasət «xətt»nin ölkə üçün məhvedici» xarakter daşıdığını da yazıçı əsərində verir.

Çingiz Abdullayev Heydər Əliyevin əleyhdarlarının Moskvaya ünvanladığı qərəzli məktubları, hakimiyyətdən uzaqlaşdırılmasından istifadə edən erməni millətçilərinin törətdiyi Qarabağ, Sumqayıt faciəsini, paralel olaraq böyük şəxsiyyətin əziz adamını itirməsindən də aldığı mənəvi sarsıntıları yada salır, onun siyasi büro üzvlüyündən çıxarılması «ona bu cür ağır sarsıdıcı zərbə vurmamışdı», düşdüyü depressiya, əsl siyasətçi kimi iradəsini toplayıb yenidən mübarizəyə qalxması, ünvanına deyilən ittihamların Sov.İKP MK Plenumunun tribunasından uydurma olduğunu cəsarətlə bəyan etməsi, Azərbaycanda baş verən hadisələrdə əli olanları cəsarətlə qamçılaması, Moskvada onu gözləyən təhlükələri adlayıb Azərbaycana dönməsi, imperiyanın dağılması, hər iki siyasətçinin-Əliyev və Şvernadzenin öz respublikasına, xalqına qabiliyyəti, bacarığı ilə tarixi xidmətlərini yazıçı ətraflı təsvir edir.

Əsərin sücetində iki dövlət başçısına qarşı hazırlanmış terror aktı ilə aeroportda «Lyuftqanze» aviaşirkətinin təyyarəsinin girov götürülməsi əməliyyatı birbiri ilə bağlı idi. Frankfurtdan uçub gəlmiş təyyarə ilə üç adam yüklərində gətirdikləri «Uzi» tipli avtomatlar və «Skorpion» markalı tapançalarla silahlanaraq sərnişinlərin artıq tərk etməyə başladıqları təyyarəyə qalxıb təyyarəni heyəti ilə girov götürürlər.

Yazıçı əsərdə Azərbaycan-Gürcüstan dövlətlərinin başçılarının yaşadığı terror həyəcanını təsvir edir. İki böyük dövlətin artıq oturduqları stolun üstünə qoyulmuş bombadan xəbərləri olduğu halda, hər ikisinin taleyinin həll edildiyi bir vaxtda göstərdikləri təmkin oxucunu heyran edir. 30 il bir-birini tanıyan, Qafqazda liderlik üçün mübarizə aparan bu iki böyük siyasətçi anlayır ki, «sui-qəsd elə hesablanıb ki, hər ikisini eyni vaxtda götürsünlər».

Onlar hər ikisi başa düşürdülər ki, «gec-tez» bu sui-qəsd olacaqdı. Hər ikisi hakimiyyətə elə bir dövrdə gəlmişdilər ki, Gürcüstan da, Azərbaycan da böyük siyasi gərginliklər içindəydi.

Yazıçı tarixi hadisələri analiz edir. Gürcüstandakı vətəndaş müharibəsini Qamsaxurdiyanın «səriştəsizliyi və təcavüzkar daxili siyasətinin» nəticəsi bilən yazıçı onun surətini yaradır, xarakterini açır: «özünə görə çox maraqlı adam» olan bu insan Gürcüstan demokratik hərəkatının başında dursa da, gürcü xalqının inandığı, bununla belə «qanuni yolla» hakimiyyətə gəlsə də, Qamsaxurdiyanın az bir vaxt ərzində «soydaşlarının nifrətini qazanmasını», onun törətdiyi vətəndaş müharibəsini, baş verən qanlı qırğın nəticəsində ölkəni tərk etməsini, Gürcüstanda baş verən vətəndaş müharibəsinin «xalqı özünüdərkə və yadlara bölən Qamsaxurdiyanın özünün bilavasitə iştirakı ilə» baş verdiyini, ona qonşu olan Azərbaycanda baş verən hadisələrlə paralel şəkildə təsvir edir: «Azərbaycanda da buna bənzər hadisələr baş verdi. Şəxsən abırlı və təvazökar insan olan Əbülfəz Elçibəy Xalq Uəbhəsinin başçısı prezident seçildi» və o da bir il ərzində ölkəni idarə etməyi «qətiyyən» bacarmadı, əslində «antikommunist dalğasında hakimiyyətə gələn hər iki «demokratik» lider, qurduqları «demokratik» recimin nöqsanlarını, onun açıq-aşkar lümpenlərin «oxlokratik idarəsi» xarakter daşıdığını görə bilmədilər. Gürcüstanda hakim recimə yaramayan kitablardan «tonqallar» qalandı, Azərbaycanda Elçibəyin demokratik üsul-idarəsinin «yaradıcı ittifaqlar nümayəndələrini kütləvi təhqir» etməyə, «rəsmi -nöqteyi nəzərdən fərqli öz fikrini ifadə etməyə cürət edən curnalistlərin döyülməsi» ilə başlandığını və bu yolla hakimiyyəti idarə etmələrini, hər iki prezidentin istər-istəməz «öz köməkçilərinin və ətrafdakıların girovuna» çevrildiyini, sonda qardaş qırğını ilə üzləşdiklərini, bir sözlə, yazıçı tarixi hadisələri ədəbiyyatın mövzusuna çevirir.

Hər iki ölkədə onların reciminə qarşı çıxan silahlı dəstələrə Uaba İoseliani (Gürcüstan) və Surət Hüseynovun (Azərbaycan) rəhbərliyi, onların dövlətə tabe olmaması, yaratdıqları təhlükə, ölkələrin Müdafiə Nazirləri Kitovaninin (Tiflis), Rəhim Qazıyevin uğursuzluqları (Kitovani Abxaziyadakı uğursuzluqda, Rəhim Qazıyev Şuşanın verilməsində günahlandırılır), Gürcüstanda törədilən vətəndaş qırğını, Azərbaycanda Gəncədə Surət Hüseynovun Elçibəy reciminə qarşı çıxması, hadisələrin gərginliyinin vətəndaş müharibəsinə aparıb çıxaracağını dərk edən Elçibəyin Heydər Əliyevi Naxçıvandan paytaxta dəvət etməsi, Heydər Əliyevin hakimiyyətə gəlişi, Qamsaxurdiya əleyhinə bütün qüvvələri qəbul edə bilən Şvernadzenin Gürcüstanda hakimiyyətə gəlişi, hər iki siyasət sahəsində yüksək bilik və bacarığa malik insanların daxili və xarici siyasət sahəsindəki atdıqları ağıllı, uğurlu addımlar siyasi detektiv canrın ən yaxşı nümunəsi olan bu əsərdə öz əksini tapmışdır.

Xarici siyasət sahəsində iki böyük siyasətçinin qarşılaşdıqları təhlükələr, atdıqları siyasi addımlar əsərdə xronoloci ardıcıllıqla verilir. Rusiya ilə mehriban qonşuluq münasibətlərini saxlamağın «mühüm əhəmiyyəti», MDB-yə daxil olmaq haqqında «qəbul edilən qərar, Tiflisdə baş verən bir neçə qanlı terror aktları (Şvernadzenin dostu Soliko Xabeişvilinin öldürülməsi, dostunun dəfninə gələn Şvernadze üçün hazırlanan suiqəsddən qurtulması, bir neçə aydan sonra parlamentin yanında partlayıcı qurğu qoyulmuş avtomobilin partlaması nəticəsində Şvernadzenin yüngül qəlpə yarası alması), buna bənzər Azərbaycanda baş verən (tutulan muzdlu qatil, prezidentin keçdiyi körpünün partladılması planı, Bakı aeroportunun yanında prezident enməli olan zaman «Yer-səma» tipli idarə



olunan raket qurğusunun qoyulması, güclü külək əsməsi nəticəsində, təyyarəçilərin təyyarənin istiqamətini dəyişməsi, Əliyevin «möcüzə nəticəsində» sağ qalması) hadisələr verilir, onları ölümdən hifz etmək istəyən Allahın yaxşı mənada rəhmi, haqqın-ədalətin sahibi Tanrı əməli kimi dəyərləndirilir.

Yazıçı əsərdə siyasət aləmində, tarix qarşısında qaranlıq qalacaq məsələ qoymur. Dövrün reallıqlarının üstündən keçmir. Hər iki siyasətçiyə qarşı olan əleyhdarların onları mənfi qiymətləndirdiyini haqsızlıq kimi qəbul edir: «Ancaq tamamilə məlumdur ki, həqiqət başqa müstəvi üzərindədir. Əsl siyasətçiyə, ümumiyyətlə, bu cür terminləri aid etmək düzgün deyil. Əliyevin müəyyən fasilələrlə respublikanı, təxminən 30 il idarə etməsi faktı onun qabiliyyətini və təşkilatçılıq istedadını sübut edir. Sığallı, tumarlı başlara heç vaxt çələng qoymurlar. Bütün dövrlərdə qaliblərin dəfnə çələngini tərli başlara qoyublar. Bu bir aksiomdur. Hər iki prezident bu aksiomu mənimsəyir. İstənilən işdə uğur qazanmaq üçün istedadla əmək, qantərlə ilham, insanla Allah qovuşmalıdır».

Yazıçı möhkəm yaddaşa malik, müdrik, ağıllı dövlət başçısının bir vacib keyfiyyətini (o, xainləri və düşmənləri bağışlamağı bacarmır) göstərir ki, bunu etmiş olsa «yolverilməz zəiflik» göstərmiş olar ki, bu zəiflik də «əvvəlki bir neçə rəhbərin» öz vəzifəsini itirməsi ilə başa çatdı. Yazıçı böyük siyasətçinin bu keyfiyyətini «Şərqdə düşmənə qarşı rəhmdil olmaq olmaz» ifadəsi ilə verir və ağıllı siyasi addım kimi dəyərləndirir.

Yazıçı hər iki ölkənin tarixində bu iki prezidentin «alternativi» olmadığından baş verəcək terror aktı nəticəsində onların itirilməsi ilə başlayacaq vətəndaş müharibəsi təhlükəsindən, reallıqlardan, vəziyyətin qeyri-sabitliyinin hələ də mövcud olduğundan, hakimiyyətə həris qüvvələrin varlığından, mürəkkəb iqtisadi vəziyyətdən narahatdır və onların xalq üçün nə qədər lazım olduğunu bilir. Bu iki prezidenti asudə həyat gözləmir. Onların görəcəyi işlər çoxdur. Şvernadze Abxaziya, Əliyev Qarabağ problemlərini öz hakimiyyətləri dövründə həll etmək istəyir. Ordu qurulmalıdır, hər iki ölkədə artıq həyat tərzinə çevrilmiş korrupsiya, keçmiş uğursuzluqların və səhvlərin, məyusluq və məğlubiyyətlərin bütün yükü onların çiynindədir, «qalxdıqları zirvədən aşağı yuvarlanmağın sarsıntılarını artıq bir dəfə yaşamış» bu iki siyasətçi «qeyri-mümkünü mümkün edə bildilər, ikinci dəfə həmin zirvəyə qalxdılar». Bir çox siyasətçilərə nəsib olmayan biliklərə, təcrübələrə yiyələnən bu iki siyasətçi dövlət başçısı kimi artıq başa düşür ki, ölkənin uçuruma yuvarlanmaması üçün onu xaosdan qorumaq, vətəndaş müharibəsinə yol verməmək vacibdir. Yeni məğlubiyyətlər təkrar olunmamalıdır, özünə inam əldə edib millətin inkişafına təkan vermək lazımdır. Onlar həm də başa düşürlər ki, hər iki dövlətin sabitliyinin yükü də onların çiyinlərindədir. «Düşmənlərinin nifrət etdiyi, bəyənmədiyi, lənətlədiyi, qəbul etmədiyi, bağışlamadığı, tərəfdarlarının isə hörmət etdiyi bu adamlar öz vətənlərinin xilaskarı olmalıdırlar. Ancaq taleləri XX əsrin sonlarında qəribə şəkildə bir-birinə qaynaq edilmişdir bu iki şəxsin daşıdığı yük nə qədər də ağırdır».

Yazıçı Heydər Əliyevin güclü iradəsini, qələbəyə köklənmiş, «musiqidən tutmuş ədəbiyyata, elmdən siyasətədək seçdiyi istənilən sahədə uğur» qazana bilmiş tarixi şəxsiyyətin xarakterik keyfiyyətlərini unutmur.

Heydər Əliyev Azərbaycanın siyasi həyatında, demokratikləşmə, iqtisadi yüksəliş, sosial-inkişaf sahəsində böyük xidmətləri olan tarixi şəxsiyyətdir. Respublikamızın tərəqqisi, dövlətçiliyimizin möhkəmlənməsi, xalqımızın firavan yaşayışının təmin olunması üçün bütün qüvvə və bacarığını səfərbər etmiş ümummilli lider Azərbaycana rəhbərlik etdiyi sovet dövründə siyasi recimin siyasətindən asılı olmayaraq, hərtərəfli, genişmiqyaslı işlər həyata keçirdiyi faktdır: «İttifaq məkanında geridə qalmış respublika statusundan sıçrayışlı inkişaf yoluna çıxan Azərbaycanda həmin dövrlərdə həyata keçirilən ardıcıl tədbirlər qısa müddət ərzində öz bəhrəsini verdi. 1969-1982-ci illər ərzində Azərbaycanda gedən quruculuq işləri, genişmiqyaslı tikinti işləri yada düşür, respublikanın şəhər və kəndlərində müasir tipli məktəblər, səhiyyə ocaqları tikildi, istifadəyə verildi. Ölkənin bütün şəhər və kəndlərində yaradılan yeni sənaye müəssisələri respublikamızın iqtisadi müstəqilliyinin daha da artmasına xidmət edirdi. Bu dövrdə «Azərbaycanda 213 sənaye müəssisəsi istismara verildi. Sənayedə əmək məhsuldarlığı dəfələrlə artdı. 581 adda yeni tipli maşın, avadanlıq və cihaz nümunələri yaradıldı. 105 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanıldı. Milli gəlirin həcmi dəfələrlə artdı və 13 il ərzində istehsal olunan sənaye məhsulunun həcmi əvvəlki 50 ilə bərabər idi. Azərbaycanın az bir müddət ərzində qazandığı bu böyük nailiyyətlərin əldə edilməsində ümummilli liderin xidmətləri misilsiz idi.

*(Davamı var)*